29 il yaşadın,
Yarım il də dərd daşıdın.
Türklüyə aşiqim mənim,
Daşnaklar öldürdü səni,
Alçaqlar öldürdü səni,
Türk oğlu Müşfiqim mənim!

Ulusunun düşmanları,
Nadanların nadanları
Gözündə qoydu kamını.
İnan mənə, yurddaşların,
Qandaşların, qurddaşların
Alacaq intiqamını!..

1989

GƏLƏCƏKDAŞLARIMIZ

YENİ DEYİM

Yeni deyim yolu yeni biçimdir,
Yeni türkülərdə göstəricimdir.

1987

DUYĞULARIMLA

Yurduma bağlandı bütün varlığım,
Mutluluğum – xalqıma oxşarlığım.

Ən ulu qanunum onun əmridir,
Ömrüm ulusdaşlarımın ömrüdür.

Qüdrətim, aləm bilir, odlardadır,
Odlu qopuzlardadır, udlardadır.

Eşqimi odlarla yoğumuş anam,
Ruhumu olmazmı səməndər sanam.

Mən ulus uğrunda yanan bir canam,
Duyğularımla can Azərbaycanam!

1987

XALQLAR

Yer üzündə nə qədər tapdanacaqdır haqqlar?!
Nə qədər alçalacaqdır qan içən alçaqlar?!
Nə zamandan bəri həsrətdir əziz yurdlarına
Bir quduz əmri ilə sürgün olunmuş xalqlar.

1987

DEYƏN BULUNMAYIB

Üfüqləri, səmaları
Biz eylədik ələk-vələk.

Nə şeytan orda var, nə cin,
Nə bir xoxan, nə bir mələk.

Kim aldadır, kim ürküdür?
Kələkmidir bu, bir kələk?

Fələk arar bu yer üzü,
Könüldə çırpınır dilək.

Ürək yararmı, ya bilək?..
Bu sirri öyrənək, bilək!

Deyən bulunmayıb, Zəka,
Hayanda gizlənib fələk?!

1986

ACGÖZLƏR

Atılar şanlı söz ustadına böhtan sözlər
Daş atar meyvəsi bol bir ağaca acgözlər.

1985

AYIN HALƏSİ

Bahar gecəsində Ayın haləsi
Şəfəq şəlaləsi, nur şəlaləsi.

1985

BİR TÜRKÜM OLAYDI

Bir türküm olaydı
Yurdun ürəyincə,
Yurdun ürəyincə,
Xalqın diləyincə.

Bir türkü qoşaydım
Türklük əməliylə,
Türklük əməliylə,
Türklük təməliylə.

Bir türküm olaydı
Gözyaşlarımızdan,
Gözyaşlarımızdan,
Türkdaşlarımızdan.

Bir türküm olaydı
Türklər kimi incə,
Türklər kimi incə,
Türklər ürəyincə.

Bir türkü qoşaydım
Türklər oxuyaydı,
Türklər oxuyaydı,
Hər ölkə duyaydı.

Bir türküm olaydı
Türkün ürəyincə,
Yurdun ürəyincə,
Qurdun diləyincə.

1986

İKİ YAVRUMA

Bu Aydanımdır mənim,
Canı canımdır mənim,
Qızıma qurban olum,
Qızıl danımdır mənim!

Bu Xəndanımdır mənim,
Adı sanımdır mənim,
Onun damarlarında
Axan qanımdır mənim.

Bu Aydanımdır mənim,
Mehribanımdır mənim,
Duyğum, hissim, təlaşım,
Həyəcanımdır mənim.

Bu Xəndanımdır mənim,
Kəhkəşanımdır mənim,
Bəxtimə ayna tutan
Çırağbanımdır mənim.

Bu Aydanımdır mənim,
Bu Xəndanımdır mənim,
Onlar iki ürəyim,
İki canımdır mənim!

1988

ƏRLƏR

Ey can verib ad almış olan adsız igidlər!
Daldıqca sizin qəbrinizə parlar ümidlər!
And içmişik artıq adınız andımız olmuş,
Ey andına sadiq qalan ərdəmli şəhidlər!

Varlıqda yaşar varlığınız torpağımızla,
Yüksəkliyiniz yüksələcək bayrağımızla,
Sazlar da, kamanlar da, davullar da sizindir,
Alqışlayırıq sizləri can novrağımızla.

Ey qurdlara dağlar, dərələr aşdıran ərlər,
Sellər yaradan duyğuları daşdıran ərlər!
Yurd daşları yurddaşların eşqiylə ucalmış,
Ey qanla yuyub torpağı yurdlaşdıran ərlər!

1986

TÜRKÜ

Könlüm inlər zaman-zaman, inlə,
Sən neçin küsmüsən Rəfiqinlə?
Məni dindir, mənim gülüm, dinlə,
Sən neçin küsmüsən Rəfiqinlə?!

Taqətim yox mənim daha artıq,
Dərman artıq, əlac, dəva artıq,
Bu həyatdan küsüb Zəka artıq,
Sən neçin küsmüsən Rəfiqinlə?!

1986

SEVMƏYƏNLƏRİ

Gün üzünü görünco yoxa çıxar nisgilim,
Mən sevirəm dumanı, çəni sevməyənləri,
Mən səni sevənləri sevərəmmi, sevgilim,
Sevmərəm ömrüm boyu səni sevməyənləri!

1977

VAXTINDAN ÖNCƏ

Bir eldə yox deyil yaman insan, Zəka, əvət!
Hər ölkə yaxşı insanı rəğbətlə qarşılar.
Ölmək qədərdədir, öləcək hər gələn, fəqət
Vaxtından öncə ölməsin aləmdə yaxşılar.

1986

ÖYLƏ BİR ŞEİR Kİ

Mavi şimşək kimi zülmətdə azaydın ki, Zəka,
Dar günümdə o mənim zillətimin şeri ola.
Öylə bir şeir bu dünyada yazaydın ki, Zəka,
O mənim yox, o mənim millətimin şeri ola!

1989

OLDU

Bu nə yoldu, Daşnak yolu,
Hər dərəsi qanla dolu,
Nə acıdır bunun adı!
O dənizdən bu dənizə
Deyib, çıxdı sinəmizə,
Bir tapdadı, bir doğradı,
Orda dəhşət, burda vəhşət,
Əlində baş, dişində ət,
Tanırsınız o Cəlladı!..

M.Müşfiq

Tanıyırıq o Cəlladı,
Qoy, andıra qalsın adı!
Bilirik doğmanı, yadı,
O zamanlar tüğyan oldu!

Ərənlər savaşda idi,
Dağda, düzdə, daşda idi,
Mələklər təlaşda idi,
İblislər "qəhrəman" oldu.

Dünya qarışıqdı onda,
İşlər dolaşıqdı onda,
Fitnə üzə çıxdı onda,
Bir sürəkli fəğan oldu.

Ərzurumda, Ərzincanda,
Qarsda, Zəngəzurda, Vanda,
Qarabağda, Naxçıvanda
Bağlar solub viran oldu.

Qudurdu bir sürü yasar,
Ölümdən çəkildi hasar,
Arxalı itlər qurd basar,
Nə obalar talan oldu!

Meydanda ərlər yox idi,
Odlu sipərlər yox idi,
Yenilməz nərlər yox idi,
Basıb-kəsmək asan oldu.

Canilər nə canlar yaxdı,
Qanlar su yerinə axdı,
Dərələrdə şimşək çaxdı,
Dağlar başı duman oldu.

Göz dikdilər yüz oylağa,
Dolaşdılar lovğa-lovğa,
Hiyləgərlikdi o qovğa,
Böhtan oldu, yalan oldu.

Qara bağladı aynalar,
Yandı körpələr, analar,

Türkü söyləyən sonalar
Quzğunlara qurban oldu.

Hələ də irmaqlar inlər,
Gorbagor olsa da cinlər,
Keçən deyil, deməsinlər
Keçən keçdi, olan oldu.

Nə istərdi yabanilər,
O məsləkləri fanilər?!
Qanda boğuldu canilər,
Qana qan oldu, qan oldu!..

Döyüşdən ərlər döndülər,
Aslan kimi göründülər,
Kinli tülkülər söndülər,
Bu intiqam yaman oldu!

Toy tutdular daşnaklara,
Dağ çəkdilər alçaqlara,
O qorxaq yapalaqlara,
Qartallara meydan oldu.

Zorbalar döndü qullara,
Başlar soxuldu çullara,
Qurd ürəkli oğullara
Yerlər, göylər heyran oldu.

Qovuldu gönü qalınlar,
O namusları yalınlar,
Qara ləkəli alınlar
Qurşunlara nişan oldu.

Yaş tökdülər, diz çökdülər,
Yaxalarını sökdülər,
Ha yalan-palan tökdülər,
Nə dava, nə dərman oldu.

Ha baş yardılar, olmadı,
Ha yalvardılar, olmadı,
Ha yaxardılar, olmadı,
Tarixi bir divan oldu!

1986

HEÇ KƏSİN

Verdiyim sözdən uzaq qaçmamışam,
Böhtan, uydurma, yalan saçmamışam.
Qadın olsun, kişi olsun, ya çocuq,
Heç kəsin sirrini mən açmamışam.

1986

UNUDULMUŞ UNUDULMAZ SÖZLƏR

Mənim gözəl dilimin, hər gözəl, hər incə sözü
Dilimdə türkülənir, könlümün gülüncə gözü.

Mənim şeir dilimə bir yabançı söz girməz,
Rəfiq Zəka o yasaq sözlərə könül verməz.

Ərəb yabançı mənə, fars yabançıdır, ancaq
Dolub yabançı, yasaq çırpılarla doğma ocaq.

Mən istərəm ki soyumdan qopub gələn sözlər
Oğuz dədəmlə bu varlıqda yüksələn sözlər.

Bugün dodaqlara qonsun, zaman-zaman dinsin,
Duyub o sözləri coşduqca saz, kaman dinsin.

Çocuq, yabançı, yasaq, iştə, pək, ovət, mutlu,
Yedək, diləkcə, güvənc, yavru, soy, ərən, kutlu.

Soyad, açıqlamaq, örpək, uçaq, ulus, türkü,
Quzey, güney, doğu, özləm, durum, özək, ürkü.

Əruz yabançı deyildir, deyildir, iştə, görün:
Məfailün fəilatün məfailün fəilün.

Əruzda türkü desin çağlayınca yurdaşlar.
Bu gül kimi dilimizlə çiçəklənər daşlar.

1970

BU DÜNYADA ÖLÜM VAR

Bu dünya gidi röyə,
Nə cəfa, nə zülüm var!
Ölümsüzdür bu dünya,
Bu dünyada ölüm var.

Uyuma, oyan, könül,
Yaralı bir gülüm var,
Alış, könül yan könül,
Bu dünyada ölüm var.

Yaxılsam da, yanma çox,
Qırovlanan külüm var,
O dünyada həyat yox,
Bu dünyada ölüm var...

1971

BİLƏNMİ VAR

Dünyaya gələndə gülən olmayıb,
Gedənin dadına gələn olmayıb,
Həyat nə deməkdir, bilər çocuq da,
Ölüm nə deməkdir, bilən olmayıb.

1971

* * *

Uğradım çox ölkəyə, şairləri çox dinlədim,
Şeir dünyasındakı mahirləri çox dinlədim.
Görmədim bir yerdə bir şair ki, olsun bəxtiyar,
Hadilərlə ağladım, Sabirləri çox dinlədim.

1972

* * *

Görəsən, gəlhagəli aşıb-daşan günündə
Varlılar utanırmı yoxsulların önündə?!

1972

* * *

Cazla yaşayanlar nə qanar saz nə deməkdir?
Yurd eşqi ilə titrəyən avaz nə deməkdir!

1972

* * *

Yaşamaz tülkülər aslanlarla,
Tülkünün oğlu deməz aslan olum.
Gülər aləm gözəl insanlarla,
Gözəl insanlara mən qurban olum.

1974

* * *

Kim zülmətə aşiq, ona gündüz nə gərəkdir,
Min üzlüyə üz vermə, ona üz nə gərəkdir?!

1980

* * *

Yurdun güllərilə sayrışsa ömrün.
Ulusun ömrünə qarışsa ömrün
Yurddaşlar eşqinə alışsa ömrün
Yaşarsan, görərsən ölüm yox sənə,
Sonra rəhmət deyən olar çox sənə.

1977

ODLANAR

Bülbüllər ah çəksə bağlar odlanar,
Qönçələr, budaqlar, tağlar odlanar.

Sağları görüncə inlər xəstələr,
Xəstələr görüncə sağlar odlanar.

Könüllər yanınca irmaqlar kimi,
Gözlərdə gözyaşı çağlar, odlanar.

Gülüm, bir ah çəksə Zəka dərindən,
Dərələr tutuşar, dağlar odlanar!..

1976

AZƏRBAYCAN TÜRKLƏRİNİN TÜRKÜSÜ

Dostum Yusif Gədikliyə

Çürük bir imperatorluq çökürkən,
Zarıldar baş kəsirkən, qan tökürkən,
Bugün türk ellərində dan sökürkən,
Umulmaz bir umud parlar fəzadan.

Əzəldən türkə məskəndir bu yerlər,
Gülümsər Ayla, yıldızla səhərlər,
Yenilməz can verib, şan almış ərlər,
Azərbaycan çıxıb minbir bəladan.

Könül türküm böyük Türk millətimdir,
Gücümdür, vəhdətimdir, hümmətimdir,
Müqəddəs müslümanlar ümmətimdir,
Bu ümmət yadigardır Mustafadan.

Bizim yurdu, bizim xalqı çalanlar
Zəhərlənmiş ilanlardır, ilanlar,
Gəbərsin zövq alanlar, şövq alanlar
Cinayətdən, yalandan, iftiradan.

Qızıl Ordu qızıl qurğuydu, məncə,
Nə divan tutdular minlərlə gəncə,
Bu vəhşət başladı yetmiş il öncə,
Bu dövlət, haqq bilir, puçdur binadan.

Könüllər titrədən tellər qırıldı,
Biləklər qanrılıb, qollar qarıldı,
Amansız güllələbaran yağdırıldı,
Əcəl fışqırdı torpaqdan, səmadan.

Yasaqdır türkə qatillər, yasaqdır,
Soyuq vicdanları buzdan sazaqdır,
O namussuzların qəlbi uzaqdır
Abırdan, ardan, izzətdən, həyadan.

Qızıl Ordu qızıl tanklarla gəldi,
Əzazillərlə, daşnaklarla gəldi,
Bu qorxaqlar o alçaqlarla gəldi,
Şəhidlər doğdu qorxunc istiladan.

Rəzillər yurdumun boynunda yükdür.
Nahaq qan yerdə qalmaz, haqq böyükdür,
İgid yurddaşlarım Türk oğlu Türkdür,
Sorun tarixiniTürkün Zəkadan.

O daşnaklar ki nifrət var gözündə,
O yaltaqlar ki mürvət yox üzündə,
O qorxaqlar yaranmış yer üzündə
Qərəzdən, fitnədən, kindən, riyadan.

Köpəklər tək görüb də qurdu yoxsa?!
Ulus yoxdur onun öz yurdu yoxsa!..
Umud yox, qurtuluş yox, ordu yoxsa,
Nicat vox Tanrıdan. dindən. duadan.

Axan gözyaşları tufan qurutmaz,
Bu dərt bir dərt ki, bir dərman ovutmaz,
Unutmaz millətim bir gün unutmaz,
Unutmaz əmri gəlsin də xudadan.

Qisas eşqiylə çağlarkən igidlər,
Könüllərdən uzaq düşməz ümidlər,
Şəhidlər var bu torpaqda, şəhidlər,
Bu yurdun fərqi yoxdur Kərbələdan.

Ehey, ey canidən imdad umanlar,
Seçilmiş namizədlər, "qəhrəmanlar",
Yetişməzmi sizə ahlar, amanlar?
Sizə yardım olarmı Moskovadan?!

Ehey, ey qan içənlər, qan için də,
Boğulmuş qan içənlər qan içində!
Sizi qərq eylərik vulkan içində,
Əsər qalmaz saralmış əjdahadan.

Ankara, 1990

YIXILDIN

Yelkənim daşa toxundu,
Taleyim durdu qəsdimə.

Yanar dağlar kimi yandım,
Yanmadı kimsə tüstümə.

Dərdin yaxıb-yıxdı məni,
Bu qəsdə adi qəsd demə!

Məni yerdən qaldır dedim,
Sənsən yıxıldın üstümə.

ŞEİRİMİN RUHU

Ey Zəka, sən ulusa, yurda könül bağlamısan,
Səni xatırlar ulus, yurd sən öləndən sonra.
Qurdu yurddaşlarının rəmzi bilib, çağlamısan,
Şerinin ruhu olar qurd, sən öləndən sonra...

1980

İNSANLARI SEVƏNLƏR

Açıq gözlü ərənlər
Könülləri mənimsər.
İnsanları sevənlər
İnsanlara gülümsər.

HİSSLƏR

Şerdir hisslərə tutan ayna,
Şairin hisslərindədir məna.

ARKADAŞLAR

Ey duyğulu, hissli arkadaşlar,
Mən sizlərə turkü söylədikcə,
Sizlər məni mutlu eylədikcə,

Könlümdə sevinc, gözümdə yaşlar,
Ruhum yenə də fəğana başlar,
Ey ruhuma məhrəm arkadaşlar!

1989

KÖRPƏ

Ər kişinin şərəfidir ər qadın,
Bifar qadın ər kişiyə zərbədir.
Körpəsinin əsiridir hər qadın,
Hər qadını ana edən körpədir.

FƏLƏK

Sevdalı könüllərdə dilək var,
Varlıqda nə şeytan, nə mələk var!
Göylərdə nə var, bilmirik, ancaq
Yerlərdə bəşər adlı fələk var!

CAN-CİYƏR

Məncə, varlıqda həyatdır ölümün can-ciyəri,
Olmasaydı ölüm, olmazdı həyatın dəyəri.

ŞAİR SEVGİSİ

O şairin ki varlığı
Olunca dərbədər, sevər,
Sevinci, bəxtiyarlığı
Kədərdədir, kədər sevər.

Olar zavallı sanmayın,
Ölür desə, inanmayın,
Alovlanınca yanmayın,
Düşünməyin hədər sevər.

Axınca dondurulmaz o,
Aşıb-daşar, durulmaz o,
Uçar, uçundurulmaz o,
Sönüncəyə qədər sevər.

1983

GƏLSİN

Kim cənnətə örnək dilər, İstanbula gəlsin,
Kim aləmi görmək dilər, İstanbula gəlsin!

1985

AYRILDIQ

Ayrılıq oduyla solanlar oldu,
Əlləri qoynunda qalanlar oldu,
Qəlbi gözyaşıyla dolanlar oldu,
Mənim də ömrümdə talanlar oldu,
Əlimdən nə gəlir, olanlar oldu.

1981

BOĞAZ İÇİNDƏ

İstanbula uğradım bu yaz da,
Cənnət kimi nazənin Boğazda
Gördüm yenə nazlanır mələklər.

Könlüm kimi qönçələr açılmış,
Sahillərə yıldırım saçılmış,
Şimşək kimi parlıyar çiçəklər.

Bir Türk darılarmı Türk elində?
Hər kəs konuşunca Türk dilində,
Bir türkü ötər coşan ürəklər.

Yalnız deyiləm bu yurdda yalnız,
Sancaqları süslər Ayla yıldız,
Ruhumda alovlanar diləklər.

İstanbul. 1988

AZƏRBAYCAN TURKLƏRİNİN BAYRAĞI

Eşqi ulusla yurddur,
Yaşıl alovlu oddur,
Mavi qanadlı qurddur
Aylı, ulduzlu bayraq!

Türkə yəminimizdir,
Yenilməz dinimizdir,
Məhmət Əminimizdir
Aylı, ulduzlu bayraq!

Günəşdir, sönə bilməz,
Yolundan dönə bilməz,
Yüksəldi, enə bilməz
Aylı, ulduzlu bayraq!

Sanma düşmanı yoxdur,
Onun bədxahı çoxdur,
Yaman gözlərə oxdur
Aylı, ulduzlu bayraq.

Darılmaz hörgüsündün,
Ayrılmaz türküsündün,
Sıyrılmaz süngüsündən
Aylı, ulduzlu bayraq.

Bağlıdır irqdaşlara
Ördəmli yurddaşlara,
Aylanar türkdaşlara
Aylı, ulduzlu bayraq

Öyüdlər qaynağıdır,
İgidlər oylağıdır,
Şəhidlər bayrağıdır
Aylı, ulduzlu bayraq.

Onu türklər ivimsər,
Atatürkü bənimsər,
Özgürlüyə gülümsər
Aylı, ulduzlu bayraq.

Duyğumuz, qanımızdır,
Qəlbimiz, canımızdır,
Azərbaycanımızdır
Aylı, ulduzlu bayraq!

İstanbul, 1990

YURD ŞAİRLƏRİ

Ulusu deyilsə şeri, ilhamı,
O şair ulusa ögeydir, ey dost!
Ulus sairinin, vurd sairinin
Gözündə yurd, ulus hər şeydir, ey dost!

Şairin varlığı yurdla dolmalı,
Yurddan uzaq düssə, düsüb solmalı,
Bağımsız bir ölkə bütöv olmalı,
Ah, bu nə quzeydir, güneydir, ey dost?!

Ulus şairləri ulusun şanı,
İnancla kükrəyər çağlayan qanı,
Torpaqdan ayrılsa üzülər canı,
Onların hamısı Anteydir, ey dost!

Yurddaşlar səsidir şair xitabı,
Min qəlbdə çırpınar hər iztirabı,
Göyləri titrədən könül rübabı,
Neyləri titrədən bir neydir, ey dost!

Şairdir ulusun yalvacı bəlkə,
Umuddur nurunun saldığı kölgə,
Yadların əliylə bəzənən ölkə
Yadların əlində muzeydir, ey dost!

1989

SƏN Kİ YOXSAN

Sən ki yoxsan bu geniş dünyada,
Mənə dünya görünür röyada.

Qəmə batmış dəli könlüm sənsiz,
Neylər ümmanda qayıq yelkənsiz?!

NEYLƏSİN

Canımı odlara yandırmadasan,
Bir deməzsən yaxılar, candır bu!

Sevginin sanma ki dövranı keçib.
Ayrılıqla dolu dövrandır bu.

Yenə bülbül şəhid olmuş gül üçün,
Yenə həsrətli gülüstandır bu.

Sən sevilmək diləyirsən ancaq,
Sevməyirsən, sənə nöqsandır bu.

Köksümü parçalayıb, bağrımı yar,
Can de, candan sənə qurbandır bu.

Canı canana verib can bulmaq,
Eylə zənn eyləmə asandır bu.

Sən mələksən, səni istərsə Zəka
Neyləsin, adi bir insandır bu.

1963

ALLAHIM!..

Tankla mərmiylə, topla doğrandı,
Parçalandı silahsız insanlar!
Yandırıldı, yaxıldı, odlandı,
Öldürüldü pənahsız insanlar!

Ordusuz yurda ordular doldu,
Bağçalar yandı, çöngələr soldu,
Bakının bağrı tarimar oldu,
Güllələndi günahsız insanlar!

Verdi fərman quduzların quduzu,
Qırdı alçaq bölük-bölük oğuzu,
Tapdadı pəncələrlə yurdumuzu
Tapdadı o ilahsız insanlar.

Ruhumuz oldu neydən, Allahım,
Xalqımız düşdü heydən, Allahım!
Görməyirdinmi göydən, Allahım,
Necə qalmışdı ahsız insanlar?!

Zorbalar əylənib də gülsünmü?
Yavrular torpağa gömülsünmü?
Qan içənlər əlində ölsünmü
Bu zavallı sabahsız insanlar?!

1990

TÜRKDAŞLARA

Qardaşlarım, irqdaşlarım,
Soydaşlarım, türkdaşlarım,
Sizlərsiniz ərkdaşlarım,
Türk Türkə ögey olmasın.

Ulduza eş Ay olsun da,
İsiniz kolay olsun da.
Olarmı halay olsun da,
Tanbur, qopuz, ney olmasın?!

Türklük çocuğun düyünü,
Duyan günü türklüyünü,
Duyacaq böyüklüyünü,
Ayıq olsun, key olmasın.

Adımız ərzi dolaşır,
Al bayrağımız alışır,
Düşmanlarımız çalışır
Türkümüzdə hey olmasın.

Gülüstanımız soldu, ah,
Çalağanlarla doldu, ah,
Bizlərə olan oldu, ah,
Sizlərə bir şey olmasın.

1989

VAR OLSUN

Yurda xor baxanlar xar olsun, qızım,
Ar olsun onlara, ar olsun, qızım!

Yer üzü üzünə açıq olmasın,
Gen dünya gözünə dar olsun, qızım!

Çıxmasın ölüncə xarabalıqdan,
Bəxtinə bayquşlar yar olsun, qızım!

Yabançı mənliyi, yasaq varlığı
Ölkədən-ölkəyə car olsun, qızım!

Dərmanı olmayan bir dərdə düşsün,
Gecəli gündüzlü zar olsun, qızım!

Qaralsın çırağı bahar çağında
Yolları qor olsun, qar olsun, qızım!

Dili bilməyənin tutulsun dili,
Gözü kor, qulağı kar olsun, qızım!

Ata ocağında, ana dilində
Konuşan oğullar var olsun, qızım!

1987

MƏHƏBBƏT

Məhəbbətdən doğub dünya ki dünyadır məhəbbət də,
Məhəbbətsiz nə varlıq var, nə yoxluq var bu xilqətdə.

QADINLAR OLMASA

Qadınlar eşqinə şairlənər ürəklərimiz,
Qadınlar olmasa olmuşdu puç diləklərimiz.

YAZIQ MİLLƏT

Yazıq millət, nələr gördün, nələr çəkdin bu dünyada,
Quduz işğalçılarla odlanıb yandın, yazıq millət!

Yazıq millət, gülüstanında gül əkdin bu dünyada,
Gül əkdin, vay dərib illərlə vaylandın, yazıq millət!

Zaman vardı hünərvərlikdə sən təkdin bu dünyada,
O saf qəlbin kimi hər qəlbi saf sandın, yazıq millət!

Otuzxanla igidlikdə bir örnəkdin bu dünyada,
Nə vaxt türk birliyiylə birləşər andın, yazıq millət?!

1980

DİLİM

Bilməyənlər bunu bilsin ki elim Türk elidir,
Dilimin türküsü Türk andı, dilim Türk dilidir!
Türk adı, bəncə, ən ülvi, on uca bir addır,
Sayısı türklərin aləmdə yarım milyarddır.

1978

ZİNDANDA

Şair, vətənin bağrı yarılmış,
Düşmənlərinin bağrını dağla!
Qurdlar çalağanlarla sarılmış,
Vulkan kimi, tufan kimi çağla!

Oldun can Azərbaycana qurban,
Qurd əzmini, türk əzmini bildir!
Bildir ki alovlar kimi çarpan
Zindanda Rza oğlu Xəlildir!

Vicdanlı igid, şanlı igidsən,
Duy eşqini yurddaşlar içində!
Sən ölməyəcək canlı şəhidsən,
Türk öfkəli türkdaşlar içində.

Andınla, inancınla, adınla
Hər türküsü şimşək dolu Türksən,
Yüksək sənə layiq soyadınla,
Eşqin Atatürkdür, Ulutürksən!

Etsin yağılar, qoy, səni sürgün,
Qurdlar dolu dağlar duman olsun!
Türk millətinin şairi bir gün
Türk dastanına qəhrəman olsun!

İstanbul, 1990

SEVGİLİ YURDDAŞLARIMA

Alovlanar dəli könlümdə duyğular dənizi,
Şeirlərimdə sizin ən kiçik diləkləriniz
Qanadlanarsa, demək, mən sizin düşüncənizi
Duyan, anan, yaşadan insanam, nə mutlu mənə!
Ulus oduyla yanar çırpınan ürəklərinizi,
Sevən baxışlarınınz nəşəli, umutlu, mənə –
Həyatda ummadığım ərməğan məhəbbətiniz,
Mənim səadətim olmuş sizin səadətiniz.
Sizin təravətinizlə çiçəklənər daşlar,
Mənimsiniz, sizinəm, ey sevimli yurddaşlar!

1970

GÜLMƏK, AĞLAMAQ

Gülmək yaşamaqdır, gözəlim, ağlamaq – ölmək,
Mən dərdimi bölmək dilərəm, dərdimi bölmək,
Gülmək dilərəm veslə erənlər kimi, gülmək,

Yaddaşdan olurmu əbədi anları silmək!?
İnsafa gəlib, yarının imdadına gəlmək,
Bir sevgiliyə, mənca, gərəkdir bunu bilmək,
Sevməkmi gözəldir, gözəlim, yoxsa sevilmək!

1989

KÖNÜLMÜ VAR

Bülbüllə açmaq istəməyən qönçə gülmü var?
Dünyada sevgisiz yaşayan bir könülmü var?!

DİDƏRGİN

İşgəncə olarmı hər gün olsun,
Yurd bunca rəvamı gərgin olsun?!
Bağrım nə qədər yarılsın, Allah!
Millət nə qədər didərgin olsun?!

1990

QARADAŞ

Təbiət bir yaşıl nura bürünər,
Üfüqlər açılar, günəş görünər,

Dərələr oyanar, dağlar oyanar,
Bağçalar oyanar, bağlar oyanar.

Oyanar yarpaqlar, güllər, çiçəklər,
İnsanlar, canlılar, quşlar, böcəklər.

Oyanar yer, səma, su, hava, torpaq,
Qaradaş oyanmaz, oyanmaz heç vaxt.

ZAMAN

Zaman nə deməkdir, düşündüm bugün,
Alovlandım bugün, üşündüm bugün.

Zaman axıb – gedən günlərimizmi?
Diləklərimizmi, ünlərimizmi?

Zaman keçmişmidir, gələcəkmidir?
Zaman bugünmüdür, o gerçəkmidir?

Könülmü duyduran hər gözəl günü?
Ağılmı uyduran bu üç bölgünü?

Keçmiş nə deməkdir, gələcək nədir?
Kim cavab verəcək, biləcək, nədir!

Bugün günümüzdə, bugün bugündür,
Hər kəsin gördüyü, duyduğu gündür.

Dünən bugün idi dünən, deyilmi?
Sabah da dünənə dönən deyilmi?

Bugün keçmiş olur sabah olurkən,
Sabahlar açmırmı keçmişə yelkən?!

Sabah bugün olur sabah gəlincə,
Zülmətin bağrını sabah dəlincə.

Zaman ulduzların sırasındamı?
Bugünlə sabahın arasındamı?

Zamanı uyduran biz deyilmiyik?
Qəlblərə duyduran biz deyilmiyik?

Zaman bir sürəkli aradır, ara,
Ömrü sürükləyir sonsuzluqlara.

1987

ÇIXMAQ İSTƏRƏM

Yoxluğun sonu yox, varlıq sonludur,
Bir yanı torpaqdır, bir yanı sudur.

Torpağın sonu var, suyun sahili,
Sahilsiz könlümün budur nisgili.

Qanadlı bir atın üstə atlanıb,
Coşub, genişlənib, kainatlanıb.

Sağ əlimdə Günəş, sol əlimdə Ay,
Qarşımda uldazlar açıla lay-lay.

Göydə şimşək kimi çaxmaq istərəm,
Zamandan dışarı çıxmaq istərəm...

1985

ƏMANƏT

Eşqin, həvəsin qalmasa canda,
Bezsən yaşamaqdan bu cahanda.

Duysan ki vücudunda mərəz var,
Görsən ki xəyalında qərəz var.

Sansan ki ölüm vaxtı gəlibdir,
Bilsən ki əcəl ömrü dəlibdir.

Aləm yıxılır üstünə sanki,
Bir an bunu xatırlayasan ki:

"Haqqdan sənə can olmuş əmanət,
Etmək ona layiqmi xəyanət?!."

1970

OĞLUM ÜÇÜN

Ruhumda bir üsyan duyaram hər zaman, oğlum!
Könlümdə qalan həsrətimi duy, aman, oğlum!
Mən qəhrəman olmaq dilədim, olmadım ancaq!
Ancaq səni görmək dilərəm qəhrəman, oğlum!
Ah, qəhrəman olmaq, igid olmaq nə gözəl şey,
Yurd eşqinə bir gün şəhid olmaq nə gözəl şey!

DÜNYA TÜRKÜSÜ

Həsən Əzizoğluna

Tanrının müridi dünya,
Qulların ümidi dünya,
Kim deyir ki gidi dünya
Dərddən aralı dünyadır?!

Bulaqları ağlar kimi,
Gecə-gündüz çağlar kimi,
Bağrındakı dağlar kimi
Dərdi sıralı dünyadır.

Bir dərd bilən həmdəmi yox,
Yaxını yox, məhrəmi yox,
Yarasının məlhəmi yox,
Qəlbi yaralı dünyadır.

Onunla qəm yeyən bilər,
Sevib, sevilməyən bilər,
Yaşaya bilməyən bilər
Nə macəralı dünyadır!

Suları gözyaşım kimi,
Daşları sirdaşım kimi,
Dünya mənim başım kimi
Ağlı-qaralı dünyadır.

İzmir, 1990

GÖYLƏRİN ALTDA

Günəş Tanrıçadır bu kainatda,
Varlıqda nə varsa onsuz deyildir.
Nə varsa bu sonsuz göylərin altda
Ölümsüz deyildir, sonsuz deyildir.

1990

ULUS TORPAĞI

Qoynunda olanlar bilər qürbəti,
Yurddaşa zəhərdir onun şərbəti,
Qürbətin yayı da soyuqdur, oğlum!

Qartal uzaq düşməz öz oylağından,
Könül oylağından, göz oylağından!
Hər yerdə kürt düşən toyuqdur, oğlum

Ərdəmli oğullar yurdda uyuyar,
Uluslu ərdəmli oğullar duyar,
Ərdəmli oğullar duyuqdur, oğlum.

Vətən daşlarıyla ucalsın başın,
Vətəndən ayrılan bir vətəndaşın
Bağrının başında oyuqdur, oğlum.

Ulus torpağıdır ömür novrağı,
Hər şeydən ucadır ulus torpağı,
Ulus torpağında nə yoxdur, oğlum!

1990

YUNUS DEYƏ-DEYƏ

Yazda gözləri yol çəkər
Dağlar Yunus deyə-deyə,
Güzdə yaprağını tökər
Bağlar Yunus deyə-deyə.

Dumanlanar başım kimi,
Darılar sirdaşım kimi,
Bulaqlar gözyaşım kimi
Çağlar Yunus deyə-deyə.

Quşlar öpər çiçəkləri,
Sazlar ötər diləkləri,
Bağlamalar ürəkləri
Dağlar Yunus deyə-deyə.

Həyatı röyadan keçər,
Xəyaldan, xülyadan keçər,
Ölümdən dünyadan keçər
Sağlar Yunus deyə-deyə.

Qələmi qırar yazanlar,
Qaranlıqlarda azanlar,
Yunus eşqinə ozanlar
Ağlar Yunus deyə-deyə.

Bursa, 1990

SULAR

Sular var, arası buz bağlayıbdır,
Sular var, yarası duz bağlayıbdır.

Sular var yerlərin gizli qatında,
Sular var göylərin yeddi qatında.

Sular var, nəfəsi alınmış sular,
Dərman qablarına salınmış sular.

İçilməz sular var bu yer üzündə,
Keçilməz sular var bu yer üzündə.

Sular var yağışdır, sular var, dolu,
Sular var işıqlı arzular dolu!

Sular var güllərin üstə saxlanar,
Sular var altında yurd bataqlanar.

Sular var damcıdır, sular var bulaq,
Sular var dalğadır, sular var irmaq!

Sular var dağlardan axıb sellənər,
Sular var dərəyə dolub, göllənər.

Sular var titrəyər fəvvarələrdə,
Sular var kükrəyər şəlalələrdə.

Sular var göz yaşı, sular var səfa,
Sular var zəhərli, sular var şəfa.

Sular var aranı sərhəd eyləyər,
Qardaşı qardaşa həsrət eyləyər.

Sular var çay olur, sular var dəniz,
Dənizlər arzudur, arzular – dəniz.

Sular var birlikdə bir okeandır,
Ruhunu okean eşqinə yandır!

1971

İNSANDAN İLHAM AL

Gerçək bir əfsanə var
İnsan adda, Aydanım,
İnsandan gözəl nə var
Bu həyatda, Aydanım?!

İnsandan ilham al da,
Daim səni ucalda,
Odur imperial da,
Brilyant da, Aydanım!

İnsana uyar insan,
İnsanı duyar insan,
İnsan arayar insan
Kainatda, Aydanım!

1981

QƏRƏZ

Bu dünyada ən murdar, ən pis mərəz
Qərəzdir, qərəzdir, qərəzdir, qərəz!

1977

OD ODUN

Od odunla yaşar, gülüm,
Odun üçün oddur ölüm.
Tutuşdum sənin oduna,
Külə döndüm yana-yana.

1978

QARABAĞ UĞRUNDA

Vətənin min yara var bağrında,
Bu ömürlük qalan izlərdəndir.
Bu şəhidlər Qarabağ uğrunda
Öldürülmüşlərimizlərdəndir...

1989

YAXIN, UZAQ ÖLKƏLƏRDƏ

TÜRKÜLƏR

Sular büründü fosfora,
Baxın, ilahi vəsf ora!.
Səmavi, mavi Bosfora
Yaxınlaşınca ürkülər,
Bu türkülər nə türkülər!

Bu sahilin küləkləri
Oyandırır dilәkləri,
Güləndə türk mələkləri,
Könül gülər, ömür gülər,
Bu türkülər nə türkülər!

Efirdədir Könül Yazar,
Səsində titrər intizar,
Açar sularda laləzar,
Gedər yabançı bürkülər,
Bu türkülər nə türkülər!

Çağıldayır qopuzla ud,
Qopuzla ud – ulusla yurd.
Ularsa dağ başında qurd,
Donar gədikdə tülkülər,
Bu türkülər nə türkülər!

Bu yol ərənlərin yolu,
Həyat dolu, işıq dolu,
Bu yerdə duyğular ulu,
Düşünməyin ki, türk ölər,
Bu türkülər nə türkülər!

Boğaz, 1984

ULU FATEH CAMESİ

Tağlarına süslənib naxışların naməsi,
Dikilmiş bir şeirdir, uzundur həngaməsi

Əzan səsləri altda içinə varan kimi
Dışında türk tarixi canlanır ekran kimi.

Beşyüzillik zəfər var torpatında, daşında,
Ulus durub Fatehin türbəsinin başında.

Səmavi bir abidə, ulduzlardan qopubdur,
Bütün gözəl sənətlər varlığına hopubdur.

Daşlaşmış musiqidir ulu Fateh camesi,
İstanbulu seyr edər başında əmmaməsi...

İstanbul, 1987

OLMAZ

Bəy ola, kürkü olmaya, olmaz,
Yay ola, bürkü olmaya, olmaz,
Hay ola, tülkü olmaya, olmaz,
Vay ola, ürkü olmaya, olmaz,
Toy ola, türkü olmaya, olmaz!

Ankara, 1987

QASIRĞALAR

Qanadlanan bu dalğalar
Gümüş qanadlı yorğalar.

Bu dalğalar qayıqları
Ha çalxalar, ha yırğalar.

Nədir bu çırpınış, nədir,
Bu qovğalar nə qovğalar?!